# QAPILARINIZI DÖYÜRÜK!..

## Sizinlə həmişəlik dost olmağa gəlmişik



*Salam dostlar! Qapınızı döyüb evinizə qonaq gəlmişik. Bizi tanımasanız da, gülər üzümüzü görüb yaddaşınızın donunu açmağa çalışırsınız. Özünüzlə bizim aramızda yaxınlıq duyursunuz, amma harda rastlaşdığımızı xatırlaya bilmirsiniz. Əslində ailənizdə böyükdən-kiçiyə hər kəslə tay-tuşuq. Deyə bilərsiniz ki, yox, biz sizinlə heç vaxt görüşməmişik. Yenə öz sözümüzün üstündə qalırıq ki, hər birinizlə ayrı-ayrılıqda yaxın münasibətimiz var. Qəflətən qonaq gəlməyimizin səbəbi isə hamınızı maraq dünyasına səyahətə çıxarmaqdır.*

Ürəyinizdə düşünüb çox götür-qoy edəcəksiniz ki, bu üzlü qonaq hardan çıxdı? Amma baş sındırmağa dəyməz. Bir azdan hər birinizlə xasiyyətimizin tutduğunu görüb anlayacaqsınız ki, biz həqiqətən də köhnə dostlarınızıq… Bir də axı qonaqpərvərlik hamımızın qanında var. Əminəm ki, hörmət-izzətlə qarşılanacağıq. Bizə evinizin ən yaxşı guşəsində yer ayıracaqsınız. Tez bir zamanda isnişəcəyik. İlk olaraq şəkər qızcığazınız, ya da balaca, dəcəl oğlunuz böyrümüzü dümsükləyib soruşacaq: -*«Çimsən?.. Niyə cəəmisən?..»*. Maraq içinizi yesə də, onu danlayacaqsınız: *«Qonağa belə suallar verməzlər»*.

Nəhayət, nənə-baba (ya da ata-ana) işə qarışıb hal-əhval tutacaq... Bax, əsil tanışlığımız bu andan başlanacaq.

Üzlü qonaq sayılsaq da, biz də kimliyimizi bilməyinizi istəyirik.

Hər bir ailənin ən azı beş qanadı olur: baba, nənə, ər, arvad və övlad. Ola bilsin ki, nənə-baba uzaqdadır, ya da, Allah eləməsin, dünyalarını dəyişiblər. Unutmayaq ki, azərbaycanlı ailələrində ən azı üç uşaq dünyaya gətirilir. Bu halda da ailənin beş qanadı olur. Bizim də adımız **«Xəmsə»**dir. Ustad Nizaminin yadigar qoyduğu beş qiymətli əsərə verilən bu ümumi adın mənası «beşlik»dir. «Beş» rəqəmi həm də dünyanın bütövlüyü (su, od, torpaq, hava - dörd ünsürün vəhdəti) ilə Yaradıcının birliyi deməkdir. Və biz beş qanadlı ailəni bütöv dünyanın mikro modeli kimi görürük. Hamınızı ocaq başına toplayıb, sevinclərinizi, arzularınızı, maraqlarınızı bir-birinizlə bölüşməyə çağırırıq. Vaxtilə evə gələn qonağı da ocaq başında əyləşdirərdilər. İndi ocağı masa əvəz edib. Onu da bilirəm ki, yaşlı nəslin nümayəndələri gənc qızlar və oğlanlar üçün nəzərdə tutulan bəzi söhbətlərimizi oxuyanda ilk baxışda üz-gözünü turşudacaq, eləcə də oynaqlığı, əyləncəni, texniki tərəqqini, zarafatı xoşlayan yeniyetmələr ciddi yazılarımızı görüb bizimlə yaxınlığa şübhə ilə yanaşacaqlar. Amma bu tez ötüb keçəcək. Əslində hər bir yaxşı ata-ana çalışır ki, övladının zövqünü, marağını oxşasın. Məgər valideyn üçün tələbə qızının, yaxud oğlunun nəyi xoşlayıb-xoşlamadığını, nə cür geyinmək, bəzənmək, tanış-bilişi ilə hansı formada rəftar etmək istədiyini bilmək maraqlı deyil? Ya da övlad ata-anasının zövqünü, maraq dairəsini bizdən öyrənsə, onların qəlbinə daha asan yol tapmazmı? O, öz arzularını bu halda daha asan gerçəkləşdirər. Ata-ana və böyük bacı-qardaş evdəki körpənin əylənməsi üçün əllərindən gələni əsirgəmirlərmi? Biz onlara bunun daha asan yollarını göstəririk. Bunları anlayandan sonra ailədə hər kəsin ən sevimli həmsöhbətinə çevriləcəyik. Təki siz heç kəslə bölüşmədiyinizi bizimlə bölüşün. Onda **«Xəmsə»**nin evinizə qonaq kimi gəlib getməsini yox, ev sakinlərindən biri kimi həmişə yanınızda qalmasını istəyəcəksiniz. Biz sizi bir-birinizdən ayıran cəhətləri üzə çıxardıb aranızdakı maneələri dəf edəcəyik. Unutmayın ki, ustad Nizami də öz **«Xəmsə»**sində cəmiyyətin bütövlüyünü arzulamış, iqtidarlarla xalqın, ərlə arvadın, uşaqla böyüyün bir-birini anlamasını əsas şərt saymışdır. Biz əslində onun öz xeyir-duası ilə ideyalarını 12-ci yüzildən bu günümüzə gətirmişik.

Dostluğumuz daimi və möhkəm olsun! Bilin ki, sizləri özümüzə arxa, dayaq və həmsöhbət bilib meydana atılmışıq. Siz də ailənizin bütün üzvlərinin təzə məsləkdaşını – **«Xəmsə»**ni hər ay gülərüzlə qapınızdan içəri buraxmağı unutmayın.